# Dədə Şəmşir - 130

## Dədə Şəmşir sazının-sözünün Türkiyədə təbliği



**İlqar İMAMVERDİYEV**
**Sənətşünaslıq Elmləri Doktoru, Qaziantep Universiteti, Türk Musiqisi Dövlət Konservatoriyasının Professoru. “Türk Xalq Musiqisinə Xidmət Mükafatçısı”.**

***Azərbaycan xalqı sazıyla-sözüylə bağrıbadaş olaraq Türk dünyasında hörmət, etibar qazanmış,Dədəlik zirvəsini fəth etmiş sənətkarları ilə daima fəxr etmişlər. Dədə Qorquddan başlamış Dədə ilə yekunlaşan Dədəliyin son nümayəndəsi Dədə Şəmşir Qurbanoğlu Gocayevdir. Fəxarətlə qeyd etməliyik ki, ustadımızınismi Azərbaycan mədəniyyətinin şərəf lövhəsində yer almaqdadır. Azərbaycanımızın qüruru, iftixarı olan Dədələr saz-söz dünyamızda zühur edərək bu azman sənətilə dünya ədəbiyyatına, musiqisinə, bəşər mədəniyyəti fövqündə möhtəşəm yaradıcılıqları ilə yüz illərdir dəyərli töhfələr bəxş etmişlər. Türk dünyasında Manasçılar, Qaracaoğlanlar, Məhdimqulular, Yunus Əmrələr, Dadaloğlular, Aşık Şenliklər, Xəstə Qasımlar, Qurbanilər, Miskin Abdalar, Dədə Ələsgərlər, Dədə Şəmşir kimi Sazımızın- sözümüzün qüruru, aşıq ədəbiyyatının fəxri olan bu nadidə incilərimiz ilahi yaradıcılıqlarını töhfə etməkləsinkretik mahiyyətli saz-söz dünyamıza.zənginlik gətirdilər.Bu sənət kəhkəşanının fatehləri Dədə adına şərəflə yüksəklərə ucaldaraq yeni yeni töhfələrlə sazlı-sözlü gələnəyimizə sahib çıxaraq mübarək imzalarını həkk edib,musiqi mədəniyyəti tariximizin salnaməsinə sənət möhürlərini basdılar.Xalq musiqisi dediyimizdə Ozan-musiqiləri, şifahi ənənəli klassik xalq ədəbiyyatı dediyimizdə isə ilk öncə ozan-aşıq şeiriyyəti ağılımıza gəlir. Sazımızın sərkərdəsidir Dədələr. Sözümüzün müqəddəsliynin qoruyucusudur Dədə timsallı ozanlarımız. Son nümayəndəsi də Şəmşir adında bir Dədəmiz ədəbi-ərkanı, mədəniyyəti, insanlığı, təbiiliyi, xeyirxahlığı, ağsaqqallığı, rəftarı, ünsiyyəti ilə hörmət-izzətlə qarşılandı, güvən qazandı elində, obasında xalqımıza örnək oldu cismi-canıyla saz-söz sənətində göstərdiyi təmənnasız fəaliyyəti ilə birlikdə. Hər kəlməsi müdrik oldu, hər vurduğu mizrab tellərdə əfsanəvi bir həyat hekayətini səsləndirdi zəngin ahənkli saz havalarında. Neçə neçə dastanlar, qoşmalar, gəraylılar əta etdilər saz-söz dünyamızın məkanı olan otaylı-butaylı böyük Azərbaycanımıza. Dədələrimiz sayəsində Azərbaycanımız Türk dünyası mədəniyyəti fövqündə tanındı digər xalqlar arasında, sayıldı seçildi, etibar qazandı, saygı gördüdünya kültürü arenasında. Azərbaycan sazının-sözünün iftixarı, qüruru olan müqəddəslik simvolu olan Qurbanoğlu Dədə Şəmşir Azərbaycan adlı məmləkətimizin sazlı-sözlü hakiminin, baş tacının adıdır Dədə Qorqud misali, Ələsgər nümunəsi Qurbani örnəyi, Şah Xətayi timsalikimi.***

Xoşbəxt o kəsdir ki Dədələri yaxından görmüş müdrikliyinin şahidi olmuş, ecazkar sazına-sözünə dinşək kəsilmiş. Bu nadidə insanlar hər zaman xalqımızın qəlbində heykəlləşməklə,ulusunun könül dünyasında müqəddəs məbədə dönüşdülər.Onların ziyarətçiləri Azərbaycan xalqıdır ki, sazın-sözün mübarək qüdrətiylə oğlunlaşıb, harmanlaşıb araya ərsəyə gəlmiş. Ruhu ilə qidalanıb bəslənib insaniliyin ali dərgahına yüksəlmişdir. Bu mərtəbəni fəth edənlərin adı Dədə timsallı Ozanlarımız-Aşıqlarımız olmuşdur Qorqud, Ələsgər, Şəmşir adında. Dədə aşıqlarımızınsənət fabrikasında istehsal etdiyi tarixi keçmişimizlə səsləşən ənənəvi saz musiqiləri, şeiriyyət adlı ədəbi məhsullar xalqımız üçün xeyir-dua şəklində bəxşiş oldu Azərbaycanımıza. Nə çaldısa haqdan,ədalətdən çaldı. Haqqı-ədaləti təmsil etdi ecazkar səsiylə, bülbül avazıyla, şaqraq zəngulələriylə. Saz dədənin əlində müdriklik simvolu oldu. Söz sənəti dilində hikmətə dönüşdü. Nəfəsi ilahidən gəldi. Əsrarəngiz yaşamıyla örnək oldu xalqımıza, millətimizə. Mədəniyyətimizin təməlini ataraq,heyrətamiz aləmlisazı-sözüylə yaşadaraq onu daima qiymətli mücövhərləri ilə zənginləşdirdi ulu dədələrimizin yadigarı, könlümüzün sultanı olan Dədə Ələsgərlər, Dədə Şəmşirlər kimi.

Dədələr yetirən mübarək “Odlar diyarı”mız adlı məmləkətin ismi Azərbaycandır. Dürlü dürlüsözləriylə təzə-tərfikirləriylə zənginlik gətirdi musiqi mədəniyyətimizə, poetik dünyamıza. Ömrümüzə naxış oldu, zinət oldu, bəzək oldu Dədələr: Dədə Ələsgər, Dədə Şəmşir kimi mübarək zatlar. Əlində saz, dilində söz hikmət anlatı əsrlərlə bizlərə, doğru yol göstərdi ulu millətinə, xalqına. Özü boyda bəxşiş oldu Dədələr. Təmənnasız töhfə etdi müqəddəs yaradıcılığını yüzillər boyu ulusuna, elinə. Kərəmləşdi sazında, Koroğlulaşdı nərəsində, Davudlaşdı ülvi səsində. Heyran etdi xalqını, məftun etdi millətini, ruhunu oxşayaraqulusunun könlünü şad etdi müdam. Mənəviyyatının simvolu oldu Dədələr. Saza-sözə bələnmiş, qaynayıb qarışmış Dədələr. Nə anlatdısa doğru anlatdı. Nə dedisə düz, sərrast dedi. Nə söylədisə haqdan izhar etdi müdrik fikirlərini dərin anlamlı dünyəvi düşüncələrini. Heyran etdi bizləri, heyrət etdirdi bizləri. Ərşdən-gürşdən xəbər verdi, yeri-göyü lərzəyə saldı möhtəşəm çalğısı üstündə çalıb –söylədiyi avazıyla, ülvi nəfəsiylə ruhumuzu oyatdı, qanımızı çanımızı coşdurtdu çalğısı-sədasıyla bu mübarək Dədələr. Ətrafına xalqını millətini toplaya bildi, ruhunu ovuda bildi, ruh oldu ruhunda, nəfəs oldu nəfəsində. Ününə ün oldu, səsinə səs oldu məna yüklü təsirli, ətkili səsində. Yaşadığı dönəmdə xalqın özü oldu bir ömürdə.Avazı oldu xalqının, sözü oldu millətinin, fikir-düşüncəsi oldu elinin-obasının. Haqdan dedi, haqdan çaldı sazını. Qəlbimizə fərəhlik, firəvanlıq gətirdi, toxtaqlıq gətirdi telli-sazıyla. Havalar yaratdı minbir ilməli melodiyalarla ruhunu təmsil etdi əxlaqlı melodiyalarla. Müdam zənginləşdirdi könül dünyamızı aydınlatdı bir günəş kimi. Xalqın özü, səsi, sədası, nəfəsi oldu Dədələr. Dədələr yetirən cənnət məkanın Azərbaycandır. Dədə Qorqud, Dədə Ələsgər, Dədə Şəmşir kimi Haqqın sevdiyi qul timsali dühalar. Dahi sənətkarlar, ülvi bəndələr. Bir məktəbdir Dədələr, abırı, isməti, rəftarı, ədəb-ərkanı, hərəkəti, münasibəti dünyabaxışı ilə. Örnək oldu, bizlərə, nümunə oldu şəxsində. Sözünün yerini bildi. Sazını çalmağın məqamını bildi. Çox sayda saz havalarını repertuarına daxil edib zamanı gəlincə toy-düyünlərdə çalıb səsləndirdi, canlı olaraq cani-dildənoxudu xalqının xeyir işlərində, mübarək günlərində.

***Sevgi simfoniyası yaratdı sazında, səsində, çalıb oxumasında şəxsində. Dədə adı Məhəbbət oldu. Dədənin özü aşiq oldu. Məşuqunun adı Azərbaycan xalqı idi. Sevdi-sevildi, hörmət-izzətlə qarşılandı xalq arasında. Dastanlar yaratdı yazıcı kimi, şeir qoşdu şair kimi, zəngin musiqilər icad etdi bir bəstəkar timsali. Heykəl tikdi könül dünyamızda heykəlləşdi. İlmələr vurdu sazında mənəvi dünyamızda rəssamlaşdı. Çalanın adı Dədə. Söyləyənin adı Dədə oldu ozanlarımız-aşıq adlı ustad sənətkarlarımız, arımız, varımız, xoş niyyətimiz, ülvi məramımız. Nə gördü onu dedi dilində, nə duydu onu çaldı sazında. Nəfəsilə nəfəs oldu ciyərlərimizə, səsiylə xoş gəldi ruhumuza, işlədi xoş sədasıyla iliyimizə qanımıza.Görən gözümüzlə ülviliyini müşahidə etdik saz-söz sənətimizi yaşadan Dədə sənətkarlarımızınşəxsində.***

Xalqımız xoşbəxtdir ki Dədə adında mübarəklərimiz, ərənlərimiz, əfsanəvi şəxsiyyətlərimiz vardır kültür dünyamızda. Fərəhləndik, qürurlandıq, öyündük Dədələrlə. Dədə Ələsgərlərlə, Dədə Şəmşir Qurbanoğlu Qocayevlə. Böyüklük mücəssəməsidir Dədə Şəmşir timsalı sənət kəhkəşanına yüksəlmiş şəxsiyyətlərimiz. Böyük şairimiz Səməd Vurğunun, Osman Sarıvəllinin bir dostunun adı Dədə Şəmşir, Cəmil Əkbərin ülviyyət simgəsi adlı, nur kimi şəfəq saçan pir dostunun isminin Qurbanoğlu Dədə Şəmşir olmasını səmimiyyətimlə etiraf etməliyəm.



**Şəkil N1. Dədə Şəmşir, Cəmil Əkbər, İlqar İmamverdiyev**

Azman sənətkarımız Dədə ŞəmşirQurbanoğlu Qocayev Türk ellərində xoş sədası gələn sazımızın, aşıq ədəbiyyatımızın qürurvericisidir, yönləndirənidir, öncüldür.

İmkanım olduqca Dədə Şəmşir yaradıcılığına müraciət edib Türkiyədə daha çox tanıtmağı qarşıma məqsəd qoymuşam. Bu fəaliyyətimlə də fəxr edirəm. Çünki Dədə Şəmşir kimi böyük dühə, sənət sahibini 7 yaşından ilkustadım atam Cəmil Əkbərlə dostluğu sayəsində bizim evin ən əziz –müqəddəs müsafiri olduğu 1963-cü ildən yaxından görmək, tanımaq, xeyirduasını almaq şərəfinə nail olmuşam. Saz söz sənətinə gəlməyimdə məhz bu nəhəng şəxsiyyətin, ülvilik timsalı Dədə Şəmşirlə Cəmil Əkbərin təşviqləri, müqəddəs xidmətləri sayəsində oldu. Nə uğurum xidmətim varsa hər iki azman insana, insanlığın əlası olan bu bəxtəvər şəxsiyyətlərə ulu ərənlərimizin hər iki yadigarına borcluyam. Buna görədə illərlə müxtəlif kongreslərdə, simpoziumlarda Dədə Şəmşir yaradıcılığı və sənəti haqda məruzələrlə çıxış edərək xüsusi kitablar da şərəfinə ərmağan etmişəm Cəmiloğlu İlqar adıyla.

Dədə Şəmşir Qurban oglu Gocayevə olan vəfa borcumuzu yerinə gətirəbilmək niyyəti ilə 2005 ilində “Şirvan” yayınevi tərəfindən yayınlatdığım 134 səhifəlik “Azərbaycanın 20 Saz Havası “ adlı 1. cild kitabımı ustadlar ustadının 110. ildönümünə ərmağan etmişəm.




**Şəkil N 2. Dədə Şəmşirin 110 yubileyinə ərmağan edilmiş 1-ci cild“Azərbaycanın 20 saz Havası”**

Dədə Şəmşirin 120 illik yubileyi münasibəti ilə 1109 səhifəlik “Saz havaları antologiyası” isimli, 418 klassik saz havaları nota yazılmış şəkildə yer almaqla 2013-cü ilində “Elm və Təhsil” yayınevi tərəfindən nəşr olundu. 2015-ci il 14 İyun tarixində Azərbaycan televiziyasının “Mədəniyyət Kanalı”nın “Musiqi xəzinəsi” verlişində bu kitab haqda Dədə Şəmşir yadigarı Qəmbər Qurbanov və Əməkdar Elm Xadimi, Azərbaycan Aşıqlar Birliyinin sədri, Professor Məhərrəm Qasımlı da xalqımıza geniş məlumat da verdi.






**Şəkil N 3. ‘Saz havaları Antologiyası” kitabının və təqdimatı**

1970-ci ildə Zakir İmamverdiyev tərəfindən Dədə Şəmşirlə Cəmil Əkbərin qədimGəncədə çəkilmiş rəsmini Amerikalı tədqiqatçı professor, (Viskonsin-Madison Universitetində “Azərbaycanın qadın aşıqları: adət-ənənələr və onların transformasiyası” mövzusunda müdafiə etdiyinamizədlik dissertasiyanın müəllifi,hal hazırda ABŞ-ın Koustal Karolina Universitetinin professoru)Anna Oldfield xanıma ilk dəfəBakıda hədiyyə etdik.



**Şəkil N 4. Cəmil Əkbər Dədə Şəmşir**



**Şəkil N 5.Prof.Dr. Anna Oldfield**

Məhz professor Anna Oldfield Zakir Cəmiloğlunun çəkdiyi bu fotoqraf ilə ünlü aşığımız Dədə Şəmşiri 2007 ilin iyul ayında ilk dəfə görüb-tanımış oldu. Və o andaca skaynerlə taradarak bilgisayarına daxil etmiş oldu.

***Dədə Şəmşirin 1956-cı ildə Xalq Şairimiz Osman Sarıvəllinin köməyi ilə və musiqişünas alim Əminə Eldarovanın vasitəsiylə lentə yazıldı. Bu yazıda 75 klassik saz havaları lentin yaddaşında əbədiləşdi. Və xoş təsadüf nəticəsində unudulmaqda olan bu lent yazısını Əminə Xanımdan əldə etməyə müvəffəq olan Anna Xanım Azərbaycanda bir nüsxəsi olmayan bu qiymətli əmanəti Dədə Şəmşir İctimai birliyinə təqdim etməsi ilə Azərbaycan mədəniyyətində şərəfli xidmətini göstərmiş oldu. Sonralar Dədə yadigarı Qəmbər müəllimin, dünya şöhrətli filosof-musiqişünas alimimiz 53 kitabın yazarı, 700-dən artıq elmi məqalənin müəllifi Osmanoğlu Babək Qurbanova, Dədə Şəmşirin ifasındakı bu lent yzılarını flaş diskdə təqdim edərək nota yazmağımı təklif etdi. Qiymətli əmanət Gaziantep Konservatoriyasında mənə çatan kimi bu səs yazılarını dinləyərək 62 klassik saz havalarını nota yazmaqla Dədə Şəmşir yaradıcılığına, Dədə Şəmşir sənətinə Dədə Şəmşir şəxsiyyətinə mənəvi borcumu xidmətimlə verməyə çalışdım. Nəhayət «Dədə Şəmşir ifacılığı sənətində ənənəvi saz havaları», adlı 256 səhifəlik kitabım ‘Vətən oğlu” NP MMC yayınevi, tərəfindən 2017 ilində Dədə Şəmşir İctimai Birliyin Dəstəyi ilə Bakıda işıq üzü gördü.***

**(ardı gələn sayımızda)**